# Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:

1. Döyüş təyinatlı hərbi texnika.

2. Qanunla dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatı.

3. Dövlət hakimiyyəti orqanlarının rabitə şəbəkəsi, müdafiə, təhlükəsizlik və asayişi mühafizə ehtiyacları üçün nəzərdə tutulan rabitə şəbəkələri.

4. Müdafiə, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat,*, hərbi əks-kəşfiyyat, xüsusi dövlət mühafizə xidməti orqanlarının şəxsi heyətinin xüsusi ləvazimatı və onların istehsalına və işlədilməsinə dair normativ-texniki sənədlər.[1]

5. Hərbi səfərbərlik təyinatlı əmlak.

~~6. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektlər.~~[2]

7. Dövlət kəmiyyət vahidləri etalonları.

8. Dövlət, peşə, qulluq, bank, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına dair məlumatları əks etdirən sənədlər.

9. Azərbaycan Respublikasının qızıl ehtiyatı və əyar damğası.[3]

10. Pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıq.

11. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr.[4]

12. İnsan orqanı və (və ya) toxumaları *(gözün buynuz qişası istisna olmaqla)*.[5]

13. Tətbiqi müəyyən edilmiş qaydada qadağan edilmiş dərman vasitələri.

14. Rəsmi sənədlər, şəxsiyyəti təsdiq edən sənədlər, Azərbaycan Respublikasının dövlət təltifləri.

15. Dövlət arxiv fondunun sənədləri.

16. Hazırlanmasının və ya uyğunlaşdırılmasının əsas məqsədi kibercinayətlər törətmək olan qurğular və ya kompyuter proqramları.[6]

*17. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkilər, həmçinin müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları.*

*18. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan, genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları.*[7]

*19. Diametri 0,5 mm-dən az olan sintetik təkqat saplardan toxunmuş və dəliklərin konstruktiv ölçüləri 120 mm-dən kiçik ilgəkli balıqtutan torlar.*

*20. Keçirici naqillərlə birləşdirilmiş elektrik siqnal generatoru və akkumulyatordan (batareya) ibarət, balıq və digər su bioresurslarını elektrik cərəyanı vasitəsilə ovlamaq üçün istifadə edilən balıqtutan cihazlar.*[8]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 dekabr 2003-cü il
564-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 30 dekabr 2005-ci il tarixli **48-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 73**)

2. 17 aprel 2007-ci il tarixli **320-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 562**)

3. 29 iyun 2012-ci il tarixli **409-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2012-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 07, maddə 670**)

4. 29 oktyabr 2013-cü il tarixli **801-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1315**)

5. 2 may 2014-cü il tarixli **950-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 iyun 2014-cü il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 06, maddə 601**)

6. 7 aprel 2017-ci il tarixli **561-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2017-ci il, 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 692**)

7. 25 aprel 2017-ci il tarixli **654-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 iyun 2017-ci il, 137, Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1039)**

8. 31 oktyabr 2017-ci il tarixli **849-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2216)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 7 aprel 2017-ci il tarixli **561-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2017-ci il, 107 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 69 2**) ilə 4-cü maddəsində "**milli təhlükəsizlik,**" sözləri "**dövlət təhlükəsizliyi, xarici kəşfiyyat,**" sözləri ilə əvəz edilmişdir.

[2] 29 oktyabr 2013-cü il tarixli **801-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1315** ) ilə 6-cı maddəsi ləğv edilmişdir.

[3] 17 aprel 2007-ci il tarixli **320-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 562**) ilə 9-cu bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~9. Xammal şəklində olan qiymətli metallar.~~

[4] 30 dekabr 2005-ci il tarixli **48-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 73**) ilə 11-ci bənddən "**və prekursorlar**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~11. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr və prekursorlar.~~

[5] 25 aprel 2017-ci il tarixli **654-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 iyun 2017-ci il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1039**) ilə 12-ci maddəsində "**toxumaları**" sözündən sonra "(**gözün buynuz qişası istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

[6] 29 iyun 2012-ci il tarixli **409-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2012-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 07, maddə 670**) ilə 16-cı hissə əlavə edilmişdir.

[7] 2 may 2014-cü il tarixli **950-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 iyun 2014-cü il, 117 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 06, maddə 601**) ilə 17-ci və 18-ci maddələr əlavə edilmişdir.

[8] 31 oktyabr 2017-ci il tarixli **849-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2216**) ilə yeni məzmunda 19-cu və 20-ci maddələr əlavə edilmişdir.